ədalət.- 2020.- 22 avqust.- S.- 5.



*Yaqut Bahadurqızı*
*Filologiya üzrə fəlsəfə doktoru*

# Ölməz sənətkar

**Təbiətin gəlin çağında, çayların sellənən, çiçəklərin ballanan, quşların nazlanan, daşın, torpağın oyanan vədəsində - yazda doğulmuşdu Eynulla. Səsini, nəfəsini Ana Kürdən almış bir el sənətkarından görkəmli xanəndə Eynulla Cəbrayılovdan söhbətə körpü salmaq istəyirəm... İndi həsrətlə, yana-yana xatırladığımız, yada düşəndə "Allah vergisi idi", "Əvəzsiz xanəndə idi" - deyə andığımız xanəndə Eynulla Cəbrayılovdan...**

Kim nə deyir desin, istedadından, qabiliyyətindən, peşəkarlığından asılı olmayaraq hər bir sənətin başlanğıcı həm üzüntülü, həm də çətin olur. Adətən, hövsələsiz, iradəsi zəif adamlar bu çətinliyə tab gətirməyib tezcə yolundan sapınır, sənətin zirvəsinə yüksələ bilmir. Zirvəni yalnız böyük istedadlılar, bu çətinliyə sinə gərib onun sirlərinə yiyələnənlər fəth edirlər.

## *Sənətdə əzab-əziyyətsiz ötüşmək,*

əziyyət çəkmədən istədiyinə nail olmaq ağlasığan deyil. Sənət həyəcanlı yaşantıların, axtarış və tapıntıların bəhrəsidir. Sənət fədaisi Eynulla Cəbrayılovun da həyatında nə qədər belə məqamlar, həyəcanlı yaşantılar olub...

Eynulla Eynulla oğlu Cəbrayılov 8 aprel 1935-ci ildə Kürdəmir rayonunun Şüşün kəndində kolxozçu ailəsində doğulub. Atasının qəfl ölümündən bir neçə ay sonra doğulan Eynullanın uşaqlıq illəri ağır keçib. Müharibə, yetimlik onun təhsil almasına imkan verməsə də, Allah vergisi olan səsi ilə 14-15 yaşından ruzisini qazanıb, nəinki doğulduğu kənddə, Kürdəmirdə, Şirvan bölgəsində, hətta bütün Azərbaycanda məşhur xanəndə kimi tanınıb.

***E.Cəbrayılov 1952-ci ildən ömrünün sonuna kimi Kürdəmir rayonu Mədəniyyət şöbəsində çalışıb, eyni zamanda, Respublikanın musiqi həyatında yaxından iştirak edib. 1956 və 1957-ci illərdə Azərbaycan gənclərinin birinci və ikinci festivallarının laureatı olub.***

Şirvan musiqi mühitində yetişən Eynulla bu bölgənin ustad sənətkarlarının ənənələrindən bəhrələnərək, muğam və aşıq sənətinin sirlərinə yiyələnib. O, ifaçılığında bu iki sənətin xüsusiyyətlərini qovuşdurmağa nail olub. Geniş diapazonlu, rəngarəng tembrli güclü səsə malik olan xanəndənin ifasında " Rast", "Segah-Zabul", "Mirzə Hüseyn Segahı", "Çahargah", "Şirvan şikəstəsi", "Kəsmə şikəstə", "Qarabağ şikəstəsi" , "Mənsuriyyə", "Vilayəti", "Kürdü", "Dərамət" və başqa muğamlar Azərbaycan Radio və Televiziya Fondunda saxlanılır. E.Cəbrayılov bir müddət Bakıda Qulu Əsgərov, Süleyman Abdullayev və Sabir Mirzəyevlə birlikdə Hacı Məmmədovun, Ə.Quliyevin, Sərvət İbrahimovun başçılıq etdikləri ansamblların müşayiəti ilə oxuyub. Ancaq o, musiqi, muğam tariximizdə, yaddaşımızda daha çox Baba Salahov adına Xalq Çalğı Alətləri Ansamblının - Xalq artisti Ağasəlim Abdullayevin və Əməkdar artist Mirnazim Əsədullayevin müşayiəti ilə oxuduğu və radionun "Qızıl fondu"nda saxlanılan nadir ifaları ilə qalıb.

**17 il öncə AYB-nin üzvü, yazıçı publisist, Eynulla Cəbrayılovun kürəkəni, qəlb dostu Yusif Cəfərli Eynulla Cəbrayılovun həyatı, sənəti haqqında "Yada düşər xatirələr" xatirə povestini yazıb. Həmin kitabda Eynulla Cəbrayılovla bağlı xeyli maraqlı xatirələr toplanıb. Bakıda F.E.Dzejinski adına klubda məşhur tarizən Əliağa Quliyevin başçılıq etdiyi məşhur ansamblla çıxışı olacaqmış. Bərk həyəcan keçirirmiş. Bir azdan tarizən, kaman ifaçısı və Eynulla səhnəyə çıxanda hamı əl çalır. Deмək hələ oxumağa başlamamış tamaşaçılar ona ehtiram göstərərək alqışlamışdılar.**

Elə oxumağa başlayan kimi tamaşaçılar arasında Qurban Pirimovla Xan Şuşinskini görür, bir qədər tutulur, nə edəcəyini bilmir. Misilsiz sənətkar Əliağa Quliyev onun vəziyyətini başa düşür. Sakitliklə ona baxıb gülümsəyir. Bu təbii ki, ürək-dirək idi. Oxuyur. Konsertdən sonra foyedə kiminsə əlini çiynində hiss edir, arxaya çevriləndə qarşısında iki böyük sənətkarın dayandığını görür. Xan əmi Eynullanın qoluna girib deyir:

**- Sağ ol, bala. Qurban əmini də, məni də sevindirdin.**

Belə xatirələri çox olub Eynullanın.

Görkəmli sənətkarın ifaçılıq sənəti qədim milli ənənənin davamı idi. Onun ifa üslubu Azərbaycan muğamlarının ən mükəmməl ənənələrini özündə birləşdirən xüsusi sənət məktəbi idi. E.Cəbrayılovun səhnə davranışı, oxu tərzi ifa zamanı muğamın sakral mahiyyətini, mənəvi zənginliyini dinləyiciyə ötürə bilməsi muğam biliciləri diqqətindən yayınmırdı. Eynullanın səsi aşıb-daşan Kürə bənzəyirdi. Sənət dostu qara zurna-balabanın anası sayılan Həsrət Hüseynov deyərdi ki, Eynulla səsindən qorxmurdu. Azərbaycanda mikrofonsuz oxuyan, səsi aləmi oyadan 2 xanəndə vardısa, biri Eynulla Cəvrayılov idi. Bəzən o, oxuyanda görürəm ki, səsi düz ürəyimə vurur, astaca balabanı qoyuram yerə, qulaq asıram, düşürəm bu dəli səsin axarına... Eynullanın şəyirdi xanəndə Səfalı Əliyev də ustadının sözlərini belə xatırlayır: "Xanəndə heç vaxt ürəyi istəməyəndə özünü oxumağa məcbur etməməlidir, çünki oxumaq ürək işidir".

***Yeri gəlmişkən deyim ki, Şirvanda xanəndələr sənətə aşıq mahnıları ilə başlayırlar. Şirvan musiqi mühitində yetişən E.Cəbrayılov ustad sənətkarların ənənələrindən bəhrələnərək, öz ifaçılığında bu iki sənətin xüsusiyyətlərini qovuşdurmağa nail olub. O, "Nazlana-nazlana", "Bala Nərgiz", "Muğana ceyran", "Boylana-boylana", Səhər-səhər" və s. aşıq mahnılarını şövqlə oxuyub.***

## *Sənət aləminə üz tutduğu gündən*

xalq mahnılarına söykənən, xalq mahnıları ilə qanad açan bu bənzərsiz sənətkar bir-birinin ardınca "Kimə yalvarım", "O qara tellərin", "Ay qız", "Ay Çiçək", "İrəvanda xal qalmadı", "Qara tellər" və s. mahnıları ifa etməklə milyonların sevimlisi olub. Həmin mahnılar indi də ifa olunanda Eynulla Cəbrayılov xatırlanır.

Tənqidçi Vaqif Yusifli Şirvan sənətkarlarına həsr etdiyi "Yolun düşsə Şirvana" kitabında qeyd edir ki: "Eynulla Cəbrayılov ən çox "Segah" muğamını sevirdi, çünki burda yanğı daha çox du, qəmi, kədəri ifadə etməyə, ürəyi boşaltmağa çox əlverişli məqamlar var. İnsanda döyüşkənlik ruhunu yaradan, nikbinliyə səsləyən "Rast"da Eynulla əsasən Füzulinin: "Öylə sərməstəm ki, idrak etməm, dünya nədir..." mətləli qəzəli ilə "Pəncigah" zirvəsinə çatır. Ancaq onun "Çahargah"ına gəlincə, sanki başqa duyğu selinə düşürsən. Bu muğamda Eynulla insan sevgisinin mərtəbə-mərtəbə ucalan zirvəsinə yol gedir. "Mənsuriyyə" isə Eynullanın ifasında yenidir, bənzərsizdir. Heç kimin "Mənsuriyyə"sinə bənzəmir. Muğamda sözlə, qəzəllə musiqinin vəhdəti bir hadisə, ruh halıdı, məqamdı. "Kəsmə şikəstə"ni Eynulla çox yanıqlı oxuyub və bu ifa kişi xanəndələr arasında yeganə ifadır".



***Eynulla Cəbrayılovun səsi kimi ruhu da azaddır. Onun səsi dinləyicisini əbədiyyətə qovuşdurur, ilahi bir məkana aparır sanki uzaq əsrlərin, minilliklərin o tayından, kəhkəşanın dibindən gəlir. Onun pərdədən-pərdəyə dəyişən səsində, zəngüləsində, rəngdən-rəngə düşən ahəngində, səsi ilə cəngə girən oxu tərzinin sanbalında tapdığımız Allah vergisinə həsəd aparmamaq mümkün deyil.***

Ona bəxş olunmuş ömür payını yalnız musiqiyə həsr edən sənətkarın şaqraq səsinin cilalanmasında, xalqın mənəvi aləminə daxil olmasında bir neçə adamın əvəzsiz rolu olub. Muğam və xalq mahnılarını gözəl, məlahətli, qəlbləri oynadan səslə ifa edən sənətkar bir müddət Kürdəmirdə məşhur aşıq Şakir Hacıyev, aşıq Əhməd Rüstəmovla, qara zurna-balabanın anası sayılan Həsrət Hüseynovla, xanəndələr Eyyub Xəlilov, Əliyusif Qəniyevlə, Sabirabadda aşıq Bəylər Qədirovla, aşıq Pənah Pənahovla, Atamoğlan Fətiyevlə, Xalıq İbrahimovla, Mehdi Vəzirxanovla bir dəstədə çıxış edib. 70-ci illərdə Aşıq Şakir, Həsrət, Eynulla üçlüyü dillərdə dastan olmuşdu. Ölkənin elə bir rayonu elə bir kəndi olmazdı ki, bu üçlük orada könül sevindirməsin. Bu mahir üçlüyün apardığı məclislərin ayrı havası, ayrı ləzzəti vardı.

Camaat səhərləri diri açırdı mağarlarda... Respublikada professional sənətkar kimi tanınmalarına baxmayaraq, heç vaxt məşq etməmiş səhnəyə çıxmazdılar. Çünki tamaşaçı qarşısında məsuliyyət hissi duyurdular. Bu məsuliyyət də onları xalqın nəzərində pillə -pillə ucaldırdı.

E.Cəbrayılovun bəxtinin çiçək açıb üzünə güldüyü, mahnı və muğamların qanadında zirvələr fəth etdiyi vaxtda ,tale onunla amansız bir oyun oynadı, sinəsinə oğul dağı çəkildi. Yenicə 15 yaşına girmiş oğlu Zabul qəflətən dünyasını dəyişdi. Beli büküldü xanəndənin.

## *Bir müddət həyatdan küsdü,*

susdu Şirvan bülbülü. Üstünə hücum çəkən karvan-karvan kədər yandırıcı bir dəstgaha çevrilib. Uca göylərin dərgahına qalxıb nakam oğlunun cavan ruhuyla birləşmək istəyi onu Azərbaycan radiosunun səsyazma studiyasına gətirib. Qısa müddətdə "Zabul-segah" muğamı yazılıb. Yaşlı nəsil muğamsevərlər xatırlayırlar ki, 1972-ci ildə radioda diktor belə bir elanı səsləndirib: Konsertimizə başlayırıq. "Zabul-segah" . Oxuyur E.Cəbrayılov."Zabul-segah" muğamından bir parça səsləndirilib.Yox, bu oxumaq deyilmiş, dərdli ata qəlbinin fəryadı, naləsi, həyatı yarımçıq qalmış oğul ruhuna son töhvəsi imiş. Bu ifadən təskinlik tapıbmış Eynulla. Sanki Zabulu yenidən qaytarıbmış dünyaya... Nə yazıq ki, bilmirmiş... Bilmirmiş ki, illər ötəcək, dizinin üstündə oturdub, oxutdurub:

**- Mənim səsimi, sənətimi sən yaşadacaqsan - dediyi, ondan sonra həqiqətən də Eynullanın sənətini layiqincə davam etdirən, efirdən, ekrandan düşməyən sonbeşik oğlu Emin də 26 yaşında bir qəzanın qurbanı olacaq, ömrü də, sənəti də yarımçıq qalacaqmış... Eynulladan sonra tez parlayan, səsi, avazı ilə hamımızı heyran edən, istiqanlı, yaraşıqlı Emin də tez parlayıb, tez də söndü. Ancaq Eynulla onun nə parlamasını görə bildi, nə də sönməsini. Elə yaxşı ki, görmədi də. Ata qəlbi iki ağır dərdi, yükü çəkə bilməzdi də...**

Bəli, bir sənətkar yaşayırdı həyatda. Qəlbi dolu idi nəğmə ilə, Vətən sevgisi ilə. O, bütün insanları sevərdi, hər kəsin dərdini dərdi, sevincini sevinci bilərdi... 1992-ci il sentyabr ayının 14-də gecə saat 12-də öz bənzərsiz səsi ilə elləri, obaları qarış-qarış gəzən, həmişə çalıb-çağırmaq istəyi ilə döyünən bir ürək susdu... Ömrünün son dəqiqələrini yaşayan xanəndənin dodaqlarında son anda "Qarabağ şik..." sözü eşidildi. Sözü axıra qədər deyə bilmədi. Deməyə gücü çatmadı. "Qarabağ şikəstəsi" sözləri onun solğun bənizi, kiplənmiş dodaqları arasında ilişib qaldı. Qarabağın naləli, dərdli, viran qalmış yurdunu, özünün ecazkar səsi ilə birgə axirət dünyasına apardı Eynulla...

***Cənazə çiyinlərə qaldırılarkən oxuduğu "Qarabağ şikəstəsi" fəryad qopardı, nalə çəkdi. Ölümündən sonra yenə qohumlarına, doğmalarına eləcə də, sənət dostlarına ən böyük təsəlli verən, yenə Eynulla özü oldu, öz səsi ilə, öz ifası ilə. Səsi, ifasıyla da əbədiyyətə qovuşdu...***

Paytaxtdan, ətraf rayonlardan onu son mənzilə yola salmağa gələn yüzlərlə pərəstişkarları, dostları, sənət adamları arasından şair Kərəm Kürqıraxlı cənazə başında bədahətən hıçqırıqla dediyi şeir hələ də insanların qulağında cingildəyir:

*Sənət peyğəmbəri köçdü dünyadan,*
*Şındı ortasından beli Şirvanın.*
*İşıqlı günləri matəmə döndü,*
*Qaldı yas içində eli Şirvanın*
*Çıxdı Eynulladan əli Şirvanın.*

*Ey çərxi-fələk, bu necə haldı?*
*Neçə toyxanamız susubdu, laldı.*
*Bülbüllü bağçalar bülbülsüz qaldı.*
*Ağlayır çəməni, çölü Şirvanın.*
*Çıxdı Eynulladan əli Şirvanın.*

*Əzəldən qayda var yaranan köçər,*
*Əzrayıl bəs niyə yaxşını seçər?*
*Sənət sərrafları qalıbdı naçar.*
*İtibdir incisi, ləli Şirvanın.*
*Çıxdı Eynulladan əli Şirvanın.*

*Kərəm, ötən ovu kimsə atammaz,*
*Qopan bir könülü təbib yapammaz.*
*Düz min il çıraqla gəzsə,tapammaz.*
*Çıxdı Eynulladan əli Şirvanın.*
*Qaldı yas içində eli Şirvanın.*